




**Dünyaya çağırış**

# Gənc tədqiqatçının uğurları



**Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini Aytən Zamanova ABŞ-nin Harvard Universitetinin Harvard Kennedy School tərəfindən təşkil edilən idarəçilər üçün "Leadership for the 21st Century" (XXI əsrdə Liderlik) adlı xüsusi təhsil proqramında iştirak etmək hüququ qazanmışdır. Aytən xanım bu ilin yanvarında müvafiq proqramda iştirak edərək təhsilini uğurla başa vurmuş və Harvard Universiteti Harvard Kennedi Məktəbinin xüsusi sertifikatı ilə təltif edilmişdir.**




İdarəçilər üçün nəzərdə tutulmuş bu proqrama ABŞ, Avstraliya, Braziliya, Argentina, Fransa, Böyük Britaniya, Yaponiya, Tayvan, Kenya, Yunanıstan, BƏƏ, Albaniya, Çin, İspaniya, Almaniya, İtaliya, Hindistan, Qətər və digər ölkələrdən 85 rəhbər vəzifəli şəxs və mütəxəssis qatılıb. Proqram müddətinin nisbətən qısa olmasına baxmayaraq, tədris prosesi kifayət qədər intensivliyi, öyrədiciliyi və səmərəliliyi ilə seçilib.

A.Zamanova "Leadership Challenge" və "Immunity to Change" mövzularında təqdimatlar etmiş və proqramda xüsusi fəallığına görə Harvard Kennedi Məktəbinin xüsusi təşəkkürünə layiq görülmüşdür.

Proqramın maraqlı və qürurverici məqamlarından biri də dərslərdən birinin Türkiyə Cümhuriyyətinin banisi, Böyük Öndər Mustafa Kamal Atatürkün liderliyinə həsr edilməsidir. A.Zamanova hesab edir ki, artıq uzun müddətdir dünyanın ən aparıcı universitetlərindən birində - Harvard Universitetində Atatürk Liderliyi mövzusunda dərsin keçirilməsi və öyrədilməsi hər bir türk övladı üçün təsvirəgəlməz qürurdur.

Proqramın təşkilatçıları və Harvard Kennedi Məktəbinin dekanı sözügedən proqramda ilk dəfə Azərbaycandan nümayəndənin iştirakını yüksək qiymətləndirmiş və məmnunluğunu bildirmişdir.

A.Zamanova mühazirə zamanı professorun: "Auditoriyada türk varmı?" sualına cavab vermək üçün söz alaraq Atatürkün türk dünyası üçün kim olduğunu, təxminən 100 nəfərlik və kifayət qədər multikultural Harvard Universiteti auditoriyasında danışdığı zaman yaşadığı qüruru da bizimlə paylaşmaqdan xüsusilə məmnun olduğunu bildirdi.

Aytən Zamanova proqramda iştirakını eksklüziv bir imkan, qiymətli təcrübə kimi dəyərləndirdi. Bu təcrübənin şəxsi və peşəkar inkişafında əvəzsiz rolu olduğunu vurğulayaraq, Harvard Kennedi Məktəbində əldə etdiyi təcrübəsindən maksimum yararlanacağını bildirdi.

Qeyd etmək yerinə düşər ki, Aytən Zamanova Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin bakalavriat və magistratura səviyyələrini fərqlənmə diplomları ilə bitirib. Birləşmiş Krallığın Robert Qordon Universitetində Neft, Qaz və Alternativ Enerji Hüququ ixtisaslaşması üzrə yüksək səviyyədə magistratura təhsili almış və magistr dərəcəsinə layiq görülmüşdür. Onu da oxucuların diqqətinə çatdıraq ki, hüquq elm sahəsi üzrə tamamladığı fəlsəfə doktorluğu dissertasiyasını müdafiə üçün BDU nəzdində Dissertasiya Şurasına təqdim etmişdir.

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***